# QADIN ÇANAĞI FORMALARINDAN VƏ YAŞDAN ASILI OLARAQ UŞAQLIĞIN VƏ YUMURTALIQLARIN MORFOMETRĐK XARAKTERĐSTĐKASI

Xıdırov E.Ə., Qanbayeva Ş.F.
*Azərbaycan Tibb Universiteti. Đnsan anatomiyası və tibbi terminologiya kafedrası. Bakı, Azərbaycan*

**Nəşr tarixi:** Dekabr 2019

***Əlaqə üçün məlumatlar:** AZ. 1033 Bakı şəhəri, S.Orucov küçəsi, ev18. mən 266; e-mail: dr_anatom @mail.ru

Tədqiqatın məqsədi kiçik çanaq boşluğu orqanlarından olan yumurtalıqların və uşaqlığın morfomerik göstəricilərinin öyrənilməsi olmuşdur.
Çanaq ölçülərinin öyrənilməsində olduğu kimi burada da yaş kateqoriyaları tərəfimizdən üç qrupa bölünübdür: gənclik yaşı dövrü, birinci və ikinci yetkinlik yaşı dövrləri. Əldə olunan nəticələrə əsasən demək olar ki, gənclik yaşı qrupunda çanağın normal formalarında uşaqlığın və yumurtalıqların morfometrik parametrlərinin variabelliyi dar çanaq formaları ilə müqayisədə daha yüksək olur.
Birinci yetkin yaş dövründə normal və dar çanaq formalarında daxili cinsiyyət orqanlarının ölçüləri arasında ən çox disbalans yumurtalıqların orta göstəricilərində aşkar şəkildə özünü büruzə verir. Əgər əvvəlki yaş qruplarında yüksək dispersiya keyfiyyəti normal çanaq formalarında müşahidə olunurdusa, ikinci yetkin yaş qrupunda maksimal dispersiya keyfiyyəti dar çanaq formalarının bütün parametrlərində müəyyən olunubdur.
Yekun. Aparılan tədqiqatlar zamanı əldə olunan nəticələr normal və dar çanaq formalarında kiçik çanaq boşluğu orqanlarının ölçüləri arasında meydana çıxan fərqləndirici əlamətlərin olduğunu təsdiq edir və bunun yaş aspekti baxımından artması müşahidə olunur.

*Açar sözlər: Uşaqlıq, yumurtalıqlar, çanaq, morfometriya*

# DEPENDENCE MORPHOMETRIC FEATURES OF THE UTERUS AND OVARIES FROM THE TYPE OF THE PELVIS AND AGE

Khidirov E.A., Ganbaeva Sh.Ph.
*Azerbaijan Medical University. Department of Human Anatomy and Medical Terminology, Baku, Azerbaijan*

Publication date: December 2019

*Contact information: AZ 1033. Baku, S.Orucov str. building 18. Email:dr_anatom @mail.ru

The purpose of the research was to study morpho-metric index of ovaries of ovaries and uterus from lesser pelvis cavity organs.
As in the study of the pelvis the age categories here are divided into 3 groups by us; early adulthood, middle adulthood, late adulthood. According to the result, the morphometric parameter uterus and ovaries in the normal pelvis are highter in the early adulthood than in the narrow pelvis in the middle adulthood.
Between internal genital organs ovaries sizes showed higher disbalans for the early adulthood in the normal and narrow pelvic form. If in previous age groups showed high dispersion quality in the normal type of the pelvis but in the middle adulthood group. Showed hight dispersion parameters in the narrow pelvis.
Conclusione**.** The result obtained during the research showed differences between size of lesser pelvic cavity depending on the age.

*Key words: Uterus, ovaris, pelvis, morphometrya*

**Giriş.** Çanaq formalarından asılı olaraq uşaqlığın və yumurtalıqların morfometrik xüsusiyyətlərini öyrənilməsi daima tədqiqatçıların diqqət mərkəzində olmuşdur [1,2,3,4, 5,6]. Əldə olunan ədəbiyyat məlumatlarının təhlili göstərir ki, bu sahədə çoxsaylı elmi tədqiqat ışləri aparılmışdır [8,9,10]. Lakin yaş morfodinamikası baxımından qeyd olunan orqanların çanaq formalarından asılı olaraq morfometrik xüsusiyyətlərinin öyrənilməsi elmi ədəbiyyatda kifayət qədər öz əksini tapmamışdır.

Tədqiqatın məqsədi kiçik çanaq boşluğu orqanlarından olan yumurtalıqların və uşaqlığın morfomerik göstəricilərinin öyrənilməsi olmuşdur.

Material və metodlar. Tədqiqat obyekti kimi ATU-nun İnsan Anatomiyası və tibbi terminologiya kafedrasının tədris meyitxanasında saxlanılan meyitlərdən (30 meyit) istifadə olunubdur. Pelviometrik əlamətlərinə görə 21 meyitdə normal ölçülü çanaq qeydə alınıbdır. Lakin meyit üzərində qadınların kiçik çanaq boşluğunun digər ölçülərini əldə etmək imkanı olmadığına görə (dar formalı çanaqları fərqləndirmək üçün) və bu səbəbdən qalan 17 meyitdə çanağın dar olması sadə qaydada tədqiq olunubdur. Tədqiqat obyekti kimi istifadə olunan meyitlər 16-60 yaş arasında olub. Çanaq ölçülərinin öyrənilməsində olduğu kimi burada da yaş kateqoriyaları tərəfimizdən üç qrupa bölünübdür: gənclik yaşı dövrü, birinci və ikinci yetkinlik yaşı dövrləri. Anatomik təşrih prinsiplərinə əsaslanaraq tədqiq olunan meyitlərin kiçik çanaq boşluğundan yumurtalıqlar və uşaqlıq xaric edilib, daha sonra onların morfometrik ölçüləri müəyyən olunubdur. Morfometrik tədqiqatlar nəticəsində əldə olunan faktiki materialların statistik xarakteristikası aparılıbdır.

Tədqiqatın bu mərhələsində gənclik yaşı qrupuna aid qadınların uşaqlığın və yumurtalıqların morfometrik göstəriciləri tədqiq olunubdur. Bu yaş qrupuna dar çanaq konfiqurasiyalı 6 meyit və 7 normal çanaq forması daxil edilibdir. Tədqiqat zamanı məlum olubdur ki, ən çox fərqlənən uşaqlığın uzununa ölçüləridir. Normal çanaq formalarında uşaqlığın uzunluğunun orta göstəricisi Xog = 58,58mm olduğu halda; dar çanaq formalarında orta göstərici $X_{og}$=50,86mm, təşkil edir (Cədvəl 1).

Bu zaman ən çox fərqlənən uzununa parametrlər olur ki,bu da normal çanaq formalarındakı yumurtalıq ölçülərindən üstün olur. Normal və dar çanaq formalarında sağ yumurtalıqların uzununa ölçülərinin arasındakı göstərici təxminən bir santimetrdən çox olur (11,38mm). Lakin, sol yumurtalıqların uzununa parametrləri arasında analoji göstərici bir qədər az olur (müvafiq olaraq: Xog= 42,75 mm; Xog=32,29mm). Qeyd olunan parametrlər üçün dispersiya göstəriciləri öyrənilən digər morfometrik gostəricilərdən fərqlənərək, yüksək olması nəzərə çarpır (normal çanaq formalarında sağ yumurtalığın eninə ölçüsü üçün -S=3,25; sol yumurtalığın uzununa ölçüsü üçün - S=3,06). Tədqiqatın gedişi zamanı müəyyən olunubdur ki, normal və dar çanaq formalarında ən az fərqlənən sol yumurtalığın qalınlğının (müvafiq olaraq: Xog=17,25mm və Xog = 14,11mm) və uşaqlığın uzunluğunun morfometrik göstəriciləri olubdur (müvafiq olaraq: Xog = 20,20mm və Xog = 17,07mm). Dar çanaq formalarında öyrənilən parametrlər üçün dispersiya göstəricilərinin aşağı olması müşahidə edilir.Belə ki, sol yumurtalığın parametri üçün dispersiya göstəricisi S=0,76; uşaqlığın boynunun uzunluq parametri üçün isə S=0,84 təşkil edir. Əldə olunan nəticələrə əsasən demək olar ki, gənclik yaşı qrupunda çanağın normal formalarında uşaqlığın və yumurtalıqların morfometrik parametrlərinin variabelliyi dar çanaq formaları ilə müqayisədə daha yüksək olur.

Beləliklə, parametrlər arasında fərq, demək olar ki, 8mm, olur. Lakin, yumurtalıqların parametrlərində disbalans özünü daha kəskin şəkildə büruzə verir.

Birinci yetkinlik yaşı qrupunda da əv-

Cədvəl 1.
16-20 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün ehtimal olunan 95%-lik dürüstlük intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 6 | 50,86 | 2,15 | 0,81 | 48,86 | 52,85 | 48,5 | 54,0 |
| | Normal | 7 | 58,58 | 1,43 | 0,58 | 57,08 | 60,08 | 56,5 | 60,5 |
| | Ümumi | 13 | 54,42 | 4,39 | 1,22 | 51,77 | 57,07 | 48,5 | 60,5 |
| Uşaqlıq cisminin eni | Dar | 6 | 23,64 | 1,44 | 0,54 | 22,32 | 24,97 | 22,0 | 26,0 |
| | Normal | 7 | 30,33 | 2,02 | 0,82 | 28,22 | 32,45 | 27,5 | 32,5 |
| | Ümumi | 13 | 26,73 | 3,84 | 1,07 | 24,41 | 29,05 | 22,0 | 32,5 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 6 | 16,14 | 0,63 | 0,24 | 15,56 | 16,72 | 15,5 | 17,0 |
| | Normal | 7 | 19,67 | 1,63 | 0,67 | 17,95 | 21,38 | 17,5 | 21,5 |
| | Ümumi | 13 | 17,77 | 2,16 | 0,60 | 16,47 | 19,07 | 15,5 | 21,5 |
| Uşaqlıq boynu-nun uzanluğu | Dar | 6 | 17,07 | 0,84 | 0,32 | 16,30 | 17,85 | 16,0 | 18,5 |
| | Normal | 7 | 20,50 | 1,52 | 0,62 | 18,91 | 22,09 | 18,5 | 22,0 |
| | Ümumi | 13 | 18,65 | 2,12 | 0,59 | 17,38 | 19,93 | 16,0 | 22,0 |
| Sol yumurtalığın uzunluğu | Dar | 6 | 32,29 | 2,60 | 0,98 | 29,89 | 34,69 | 28,5 | 36,0 |
| | Normal | 7 | 42,75 | 3,06 | 1,25 | 39,54 | 45,96 | 38,5 | 46,5 |
| | Ümumi | 13 | 37,12 | 6,06 | 1,68 | 33,45 | 40,78 | 28,5 | 46,5 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 6 | 30,79 | 1,91 | 0,72 | 29,02 | 32,55 | 28,0 | 33,0 |
| | Normal | 7 | 42,17 | 2,75 | 1,12 | 39,28 | 45,05 | 38,5 | 45,5 |
| | Ümumi | 13 | 36,04 | 6,31 | 1,75 | 32,22 | 39,85 | 28,0 | 45,5 |
| Sol yumurtalığın eni | Dar | 6 | 18,14 | 0,85 | 0,32 | 17,35 | 18,93 | 17,0 | 19,5 |
| | Normal | 7 | 23,67 | 3,25 | 1,33 | 20,26 | 27,08 | 19,5 | 27,5 |
| | Ümumi | 13 | 20,69 | 3,60 | 1,00 | 18,52 | 22,87 | 17,0 | 27,5 |
| Sağ yumurtalığın eni | Dar | 6 | 18,79 | 2,04 | 0,77 | 16,90 | 20,67 | 16,5 | 21,5 |
| | Normal | 7 | 25,67 | 2,34 | 0,95 | 23,21 | 28,12 | 22,0 | 28,5 |
| | Ümumi | 13 | 21,96 | 4,14 | 1,15 | 19,46 | 24,46 | 16,5 | 28,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 6 | 14,00 | 0,71 | 0,27 | 13,35 | 14,65 | 13,0 | 15,0 |
| | Normal | 7 | 17,50 | 1,64 | 0,67 | 15,78 | 19,22 | 15,0 | 19,5 |
| | Ümumi | 13 | 15,62 | 2,16 | 0,60 | 14,31 | 16,92 | 13,0 | 19,5 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 6 | 14,11 | 0,76 | 0,29 | 13,41 | 14,82 | 13,5 | 15,5 |
| | Normal | 7 | 17,25 | 0,94 | 0,38 | 16,27 | 18,23 | 16,0 | 18,5 |
| | Ümumi | 13 | 15,56 | 1,82 | 0,50 | 14,46 | 16,66 | 13,5 | 18,5 |

vəlki mərhələdə olduğu kimi 6 me-yitdə dar canaq və 7 normal çanaq formala-rında qadın kiçik çanaq boşluğu orqanla-rının morfometrik göstəriciləri tədqiq edilib-dir. Bu yaş dövründə normal və dar çanaq for-mala-rında daxili cinsiyyət orqanlarının ölçüləri arasında ən çox disbalans yumurtalıqların orta göstəricilərində aşkar şəkildə özünü bü-ruzə verir.

Ən çox fərqlənən sol yumurtalığın uzun-luq parametridir (müvafiq olaraq: Xog=48,52 mm və Xog=31,86 mm). Bir qədər az fərq sağ yumurtalığın uzunluq parametri üçün müəy-

yən olunubdur. Belə ki, normal çanaq formalarında orta göstərici Xog= 49,67mm olduğu halda; dar çanaq formalarında orta gös-tərici Xog=34,00 təşkil edir (cədvəl 2). Uşaqlığın parametrləri arasında gənclik yaşı qrupunda olduğu kimi, bu yaş dövründə də ən çox fərq-

Cədvəl 2.
21-35 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün ehtimal olunan 95%-lik dürüstlük intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 6 | 58,71 | 2,75 | 1,04 | 56,17 | 61,26 | 55,5 | 62,0 |
| | Normal | 7 | 73,50 | 5,13 | 2,09 | 68,12 | 78,88 | 65,5 | 78,5 |
| | Ümumi | 13 | 65,54 | 8,58 | 2,38 | 60,35 | 70,72 | 55,5 | 78,5 |
| Uşaqlıq cisminin eni | Dar | 6 | 27,43 | 1,86 | 0,70 | 25,71 | 29,15 | 25,5 | 30,0 |
| | Normal | 7 | 34,67 | 2,02 | 0,82 | 32,55 | 36,78 | 31,5 | 37,0 |
| | Ümumi | 13 | 30,77 | 4,19 | 1,16 | 28,24 | 33,30 | 25,5 | 37,0 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 6 | 17,64 | 1,14 | 0,43 | 16,58 | 18,70 | 16,0 | 19,0 |
| | Normal | 7 | 21,25 | 0,94 | 0,38 | 20,27 | 22,23 | 20,0 | 22,5 |
| | Ümumi | 13 | 19,31 | 2,13 | 0,59 | 18,02 | 20,59 | 16,0 | 22,5 |
| Uşaqlıq boynunun uzanluğu | Dar | 6 | 18,50 | 1,35 | 0,51 | 17,25 | 19,75 | 16,5 | 20,0 |
| | Normal | 7 | 22,58 | 0,74 | 0,30 | 21,81 | 23,36 | 21,5 | 23,5 |
| | Ümumi | 13 | 20,38 | 2,37 | 0,66 | 18,95 | 21,82 | 16,5 | 23,5 |
| Sol yumurtalığın uzunluğu | Dar | 6 | 31,86 | 3,75 | 1,42 | 28,39 | 35,32 | 27,0 | 36,5 |
| | Normal | 7 | 48,52 | 3,75 | 1,53 | 44,58 | 52,45 | 42,0 | 52,0 |
| | Ümumi | 13 | 39,55 | 9,36 | 2,60 | 33,89 | 45,20 | 27,0 | 52,0 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 6 | 34,00 | 3,30 | 1,25 | 30,94 | 37,06 | 30,0 | 38,0 |
| | Normal | 7 | 49,67 | 5,16 | 2,11 | 44,25 | 55,09 | 41,5 | 55,5 |
| | Ümumi | 13 | 41,23 | 9,09 | 2,52 | 35,74 | 46,72 | 30,0 | 55,5 |
| Sol yumurtalığın eni | Dar | 6 | 20,43 | 1,69 | 0,64 | 18,86 | 22,00 | 18,5 | 22,5 |
| | Normal | 7 | 27,00 | 0,84 | 0,34 | 26,12 | 27,88 | 26,0 | 28,0 |
| | Ümumi | 13 | 23,46 | 3,65 | 1,01 | 21,25 | 25,67 | 18,5 | 28,0 |
| Sağ yumurtalığın eni | Dar | 6 | 21,14 | 2,63 | 0,99 | 18,71 | 23,57 | 18,0 | 24,0 |
| | Normal | 7 | 27,67 | 1,37 | 0,56 | 26,23 | 29,10 | 25,5 | 29,5 |
| | Ümumi | 13 | 24,15 | 3,96 | 1,10 | 21,76 | 26,55 | 18,0 | 29,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 6 | 14,64 | 1,41 | 0,53 | 13,34 | 15,94 | 13,0 | 16,5 |
| | Normal | 7 | 18,97 | 1,11 | 0,45 | 17,80 | 20,13 | 17,0 | 20,0 |
| | Ümumi | 13 | 16,64 | 2,56 | 0,71 | 15,09 | 18,18 | 13,0 | 20,0 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 6 | 16,43 | 1,48 | 0,56 | 15,06 | 17,80 | 14,0 | 18,0 |
| | Normal | 7 | 19,33 | 0,68 | 0,28 | 18,62 | 20,05 | 18,5 | 20,5 |
| | Ümumi | 13 | 17,77 | 1,89 | 0,52 | 16,63 | 18,91 | 14,0 | 20,5 |

lənən onun uzununa parametrləri olubdur (fərq təxminən 1,5 sm).Birinci yetkinlik yaşı dövrünə aid normal çanaq formalarında uşaqlığın uzunluğunun orta göstəricisi Xog=73,50mm olduğu halda: dar çanaq formalarında orta göstərici Xog = 52,7mm təşkil edir. Yuxarıda qeyd olunan parametrlərin dispersiya göstəriciləri gənclik yaşı qrupunda əldə olunan müvafiq parametrlərin statistik nəticələri ilə müqayisə olunubdur. Belə ki, ən çox fərqlənən parametrlərdə dispersiya keyfiyyətinin yüksək olması qeydə alınıdır. Normal çanaq formalarında sağ yumurtalığın uzunluğunun dispersiya göstərici -si S=5,16; uşaqlığın uzunluğunun dispersiya göstəricisi isə S=5,13 təşkil edir.

Normal və dar çanaq konfiqurasiyalarında qadınların kiçik çanaq boşluğu orqanlarının ölçülərinin müqayisəsinə gəldikdə ən az dəyişən göstəricilər: sol yumurtalığın qalınlığının (müvafiq olaraq: Xog=19,33mm və Xog=16,43 mm) və uşaqlığın cisminin qalınlığının (müvafiq olaraq: Xog=21,25mm və Xog=17,64 mm) parametrləri olduğu müəyyən edilibdir. Minimal dispersiya keyfiy-yəti (yaş aspekti baxımından) sol yumurtalığın qalınlıq, uşaqlığın boynunun uzunluq, sağ yumurtalığın en və uşaqlığın cisminin en parametrlərində müşahidə olunubdur. Yuxarıda qeyd olunan bütün morfometrik parametrlər üçün dispersiya keyfiyyəti vahiddən aşağı olur.

Axırıncı yaş kateqoriyasında (ikinci yetkinlik yaşı dövrü: 36 - 60 yaş) normal və dar çanaq formaları əvvəlki yaş dövrləri ilə müqayisədə bir qədər az (5 meyit) olubdur. Dar çanaq formalarının az müşahidə olunması öyrənilən parametrlərin dispersiya keyfiyyətinə təsir edərək onun artmasına səbəb olubdur. Əgər əvvəlki yaş qruplarında yüksək dispersiya keyfiyyəti normal çanaq formalarında müşahidə olunurdusa, bu yaş qrupunda maksimal dispersiya keyfiyyəti dar çanaq formalarının bütün parametrlərində müəyyən olunubdur. Məsələn, dispersiya keyfiyyəti sağ yumurtalığın uzunluğu üçün - S=6,67; sol yumurtalığın uzunluğu üçün - S=6,41; uşaqlığın cisminin uzunluğu üçün - S=6,07 təşkil edir.

Tədqiqat apardığımız bu yaş qrupunda istər normal, istərsə də dar çanaq konfiqurasiyalarında öyrənilən parametrlərin ölçülərində tərəfimizdən gözlənilməz nəticələr müşahidə olunubdur. Ən çox fərqlənən yumurtalıqların uzunluğunun orta ölçüləridir. Belə ki, bu qrupda da sol yumurtalığın ölçülərinin (müvafiq olaraq: Xog=55,70 mm və Xog = 38,93mm); sağ yumurtalığın eyni adlı ölçüləri ilə müqayisədə (müvafiq olaraq: Xog = 55,70mm və Xog=41,43 mm) artdığı müəyyən olunubdur (cədvəl 3).

Normal və dar çanaq formalarında uşaqlığın cisminin uzunluq parametrləri kifayət qədər bir-birindən fərqlənir. Belə ki,dar çanaq formalarında bu əlamətin orta göstəricisi Xog=74,79 mm olduğu halda, normal çanaq konfiqurasiyasında orta göstərici Xog=85,40 mm, təşkil edir. Lakin, az fərqləndirici xüsusiyyət sağ və sol yumurtalıqların qalınlıq parametrlərində nəzərə çarpır. Müəyyən edilibdir ki, normal və dar çanaq formalarında sol yumurtalığın qalınlıq parametrlərində fərq təxminən 4mm - ə bərabər olur (müvafiq olaraq: Xog=20,20 mm və Xog=16,86 mm). Əldə olunan məlumatlar digər tədqiqatçıların fikirləri ilə üst-üstə düşür (11,12)

Tədqiqat aparılan paraemetrlərdə müşahidə olunan az müxtəliflilik yüksək olmayan dispersiya keyfiyyəti ilə xarakterizə olunur. Belə ki, sol yumurtalığın uzunluq parametrində dispersiya keyfiyyəti dar çanaq forması üçün:S=1,41, normal çanaq forması üçün isə: S=1,04 müəyyən edilibdir. Bununla belə, normal çanaq formalarında uşaqlığın uzunluq və en parametrlərində minimal dispersiya keyfiyyəti müşahidə olunur (müvafiq olaraq: S=0,42 və S=0,22).

**Yekun.** Aparılan tədqiqatlar zamanı əldə olunan nəticələr normal və dar çanaq formalarında kiçik çanaq boşluğu orqanlarının ölçüləri arasında meydana çıxan fərqləndirici

Cədvəl 3.
36-60 yaşarası meyitlərdə uşaqlığın və yumurtalıqların morfometrik xarakteristikası (mm).

| Morfometrik əlamətlər | Çanağın formaları | Statistik parametrlər | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | N | X | S | S(r) | X üçün 95%-lik ehtimallıq intervalı | | min | max |
| | | | | | | min | max | | |
| Uşaqlıq cisminin uzunluğu | Dar | 5 | 74,79 | 6,07 | 2,30 | 69,17 | 80,40 | 65,5 | 82,5 |
| | Normal | 7 | 85,40 | 0,42 | 0,19 | 84,88 | 85,92 | 85,0 | 86,0 |
| | Ümumi | 12 | 79,21 | 7,08 | 2,04 | 74,71 | 83,70 | 65,5 | 86,0 |
| Uşaqlıq cisminin eni | Dar | 5 | 34,00 | 2,77 | 1,05 | 31,44 | 36,56 | 30,0 | 38,0 |
| | Normal | 7 | 40,60 | 0,22 | 0,10 | 40,32 | 40,88 | 40,5 | 41,0 |
| | Ümumi | 12 | 36,75 | 3,97 | 1,15 | 34,23 | 39,27 | 30,0 | 41,0 |
| Uşaqlıq divarının qalınlığı | Dar | 5 | 19,57 | 1,90 | 0,72 | 17,81 | 21,33 | 16,5 | 22,0 |
| | Normal | 7 | 24,30 | 1,35 | 0,60 | 22,62 | 25,98 | 23,0 | 26,0 |
| | Ümumi | 12 | 21,54 | 2,93 | 0,84 | 19,68 | 23,40 | 16,5 | 26,0 |
| Uşaqlıq boynunun uzunluğu | Dar | 5 | 19,36 | 1,52 | 0,57 | 17,95 | 20,76 | 17,0 | 21,5 |
| | Normal | 7 | 24,00 | 1,27 | 0,57 | 22,42 | 25,58 | 22,5 | 25,5 |
| | Ümumi | 12 | 21,29 | 2,75 | 0,79 | 19,54 | 23,04 | 17,0 | 25,5 |
| Sol yumurtalığın uzunluğu | Dar | 5 | 38,93 | 6,41 | 2,42 | 33,00 | 44,86 | 30,0 | 48,5 |
| | Normal | 7 | 56,20 | 2,41 | 1,08 | 53,20 | 59,20 | 52,0 | 58,0 |
| | Ümumi | 12 | 46,13 | 10,18 | 2,94 | 39,66 | 52,59 | 30,0 | 58,0 |
| Sağ yumurtalığın uzunluğu | Dar | 5 | 41,43 | 6,67 | 2,52 | 35,26 | 47,60 | 32,0 | 51,5 |
| | Normal | 7 | 55,70 | 1,20 | 0,54 | 54,20 | 57,20 | 54,0 | 57,0 |
| | Ümumi | 12 | 47,38 | 8,88 | 2,56 | 41,73 | 53,02 | 32,0 | 57,0 |
| Sol yumurtalığın eni | Dar | 5 | 23,79 | 2,91 | 1,10 | 21,09 | 26,48 | 19,5 | 28,5 |
| | Normal | 7 | 29,80 | 2,71 | 1,21 | 26,44 | 33,16 | 25,0 | 31,5 |
| | Ümumi | 12 | 26,29 | 4,11 | 1,19 | 23,68 | 28,90 | 19,5 | 31,5 |
| Sağ yumurtalığın eni | Dar | 5 | 23,79 | 3,49 | 1,32 | 20,56 | 27,01 | 18,5 | 28,5 |
| | Normal | 7 | 32,00 | 1,37 | 0,61 | 30,30 | 33,70 | 30,0 | 33,5 |
| | Ümumi | 12 | 27,21 | 5,02 | 1,45 | 24,02 | 30,40 | 18,5 | 33,5 |
| Sol yumurtalığın qalınlığı | Dar | 5 | 16,21 | 1,75 | 0,66 | 14,59 | 17,84 | 13,5 | 19,0 |
| | Normal | 7 | 20,90 | 0,96 | 0,43 | 19,71 | 22,09 | 19,5 | 22,0 |
| | Ümumi | 12 | 18,17 | 2,80 | 0,81 | 16,39 | 19,94 | 13,5 | 22,0 |
| Sağ yumurtalığın qalınlığı | Dar | 5 | 16,86 | 1,41 | 0,53 | 15,56 | 18,16 | 14,5 | 18,5 |
| | Normal | 7 | 20,20 | 1,04 | 0,46 | 18,91 | 21,49 | 19,0 | 21,5 |
| | Ümumi | 12 | 18,25 | 2,11 | 0,61 | 16,91 | 19,59 | 14,5 | 21,5 |

əlamətlərin olduğunu təsdiq edir və bunun yaş aspekti baxımından artması müşahidə olunur.

**Maliyyə mənbəyi**: Yoxdur
**Maraqların toqquşması**: Yoxdur.

**Ədəbiyyat siyahısı.**

1. *Лазарев А.Ф., Костенко Ю.С.* Большие проблемы малого таза // Вестник травматологии и ортопедии имени Н.Н. Приорова. 2007; 4: 83-87
2. *Шмедык, Н.Ю.* Магнитно-резонансная пелвиометрия: диагностика риска клинически узкого таза и дистоции плечиков в конце третьего триместра беременности // Проблемы женского здоровья. 2014; 9(1): 44-51.
3. *Шмедык Н.Ю., Труфанов Г.Е., Фокин В.А. и др.* Магнитно-резонансная и наружная пельвиметрия в диагностике формы и степени суженного таза у беременных. Трансляционная медицина, 2016;3:113-124.
4. *Демарчук Е.Л.* Анатомо-антропологичес-кие особенности организма и размеры таза женщины на юношеском этапе онтогенеза: Автореф. Дис.…канд.мед.наук. Новосибир-ск, 2004; 19
5. *Хребтова О.М.* Размеры анатомически нормального и узкого таза у девушек и женщин разных конституциональных типов // Хирургия, морфология, лимфология. Бишкек, 2004; 1(1): 35-38.
6. *Сырова О.В.* Размерные характеристики и формы таза у девушек 17 -19 лет / Аспирантские чтение .Сб. науч. трудов. Саратов Изд-во СГМУ. 2008; 81-82.
7. *Чернуха Е. А., Волобуев А. И., Пучко Т. К.* Анатомически и клинически узкий таз. М., 2005; 256.
8. Iloki L.H., Koubaka R., Itoua C. et al. Teenage pregnancy and delivery. J. Gynecol. Obstet. Biol. Rep rod., 2004; 33(1): 37-42.
9. *Савельева Г.М., Сухих Г.Т., Серов В.Н.* Акушерство. Национальное руководство. Москва, Гэотар-Медиа, 2018; 1048.
10. *Гайворонский И.В., Бессонов Н.Ю., Ниаури Д.А.* Оригинальные подходы к изучению морфометрических характеристик плоскости выхода из малого таза у взрослых женщин // Журнал акушерства и женских болезней, 2012; 61(1): 20-25.
11. Gray's Anatomy: The Anatomical Basis of Clinical Practice (Ed. in chief: Susan Standring). 41st edition, 2015; 1562.
12. *Радзинский В.Е., Фукс А.М.* Акушерство. Москва: ГЭОТАР-Медиа, 2016; 1040.


## XRONĐKĐ HĐPOKSĐYA ZAMANI HĐPOFĐZ VƏ BÖYRƏKÜSTÜ VƏZĐLƏRĐN PATOHĐSTOLOJĐ XÜSUSĐYYƏTLƏRĐ


Yaqubova S.M.

*Azərbaycan Tibb Universiteti. Patoloji anatomiya kafedrası. Bakı, Azərbaycan*



**Nəşr tarixi:** Dekabr 2019



***Əlaqə üçün məlumatlar:** Bakı, H.Zərdabi pr-ti 41, mənzil 52. E-mail: syagubova.71@gmail.com



Tədqiqatın məqsədi xroniki hipoksiya zamanı hipofiz və böyrəküstü vəzilərin toxuma strukturlarında (vəzi və stromal) baş verən morfofunksional dəyişikliklərin patogenetik və morfogenetik xüsusiyyətlərinin öyrənilməsi olmuşdur.
Tədqiqatın material və metodları. Tədqiqat obyekti xroniki hipoksiya modeli yardılmış kütləsi 180-200 qram olan yetkin erkək ağ siçovulların hipofiz və böyrəküstü vəziləri olmuşdur. Tədqiqatın gedişində histoloji və morfometrik müayinə metodlarından istifadə edilmişdir.
Tədqiqatın nəticələri. Uzunmüddətli hipoksiyaya hipofizin və böyrəküstü vəzilərin hüceyrələri, damarları və birləşdirici toxuma strukturları müxtəlif morfo-struktur dəyişikliklərlə cavab verir. Toxumalarda baş verən morfoloji dəyişikliklər hər iki vəzidə müxtəlif olub, onların morfo-funksional xüsusiyyətlərindən, eləcə də hipoksiyaya (təsirinə) həssaslıq dərəcəsindən asılıdır.Vəzilərin morfoloji tədqiqi zamanı təcrübə qruplarında hipoksiyadan sonrakı bərpa dövrü – vəzilərin strukturunun yenidənqurulması – bütün toxumalarının bərpa olunması böyrəküstü vəzidə təcrübənin 15-ci, hipofizdə isə 30-cu günü müşahidə edilmişdir.